

## AZAD QƏLBİNUR

### Məlahət xanım

*(şair Məlahət Yusifqızına)*

Sənət dünyasında var adı, sanı,
Sözündən tutmağı sevir adamı.
Şeir-qəzəl üçün qoyubdur canı,
Özü məlahətli Məlahət xanım,
Sözləri hikmətli Məlahət xanım.

Göstərər gənc yazar, şairlərə yol,
Sənət bağbanıdır, bağda bəhər bol.
Səni daim yaşa, daima var ol,
Ədəbi sərvətli Məlahət xanım!
Sözləri hikmətli Məlahət xanım.

Tanrı qələmini var etsin sənin,
Sözünü dünyaya car etsin sənin!
Varsa, düşmənini xar etsin sənin,
Şeirə möhnətli Məlahət xanım!
Sözləri hikmətli, Məlahət xanım.

Sənətdə olmalı adın birinci,
Özün də, sözün də sənin bir inci.
Şair eləmisən onlarla gənci,
İzi bərəkətli Məlahət xanım!
Sözləri hikmətli Məlahət xanım.

Azad sənətinə vurğundur sənin,
Bəzən fikirlərin durğundur sənin.
Ay bacı, gözlərin yorğundur sənin,
Vüqarlı, qamətli, Məlahət xanım!
Sözləri hikmətli, Məlahət xanım.

### Ad günün mübarək

*(şair dostum Xalıq Laçınlıya)*

Gözəl insan, gözəl yoldaş, gözəl dost,
Qazanmısan bu adları, ay Xalıq!
Bəs eləməz, şəninə yüzlərlə tost,
Hifz eləsin, səni Tanrı, ay Xalıq!

Gənc nəsilə kəlmələrin mayaqdı,
Elimizə haqq qələmin dayaqdı.
Sevən qəlbin səksəkədə, oyaqdı,
Bir özünü düşün barı, ay Xaliq!

Torpaqları yağı düşmən tapdadı,
Çox eşidib, gördün ahı, fəryadı.
Bu nalələr, unutdurubdur adı,
Unutmursan fəryadları, ay Xaliq!

Söz məktəbi bitirmisən, bilirəm,
Sözə uğur gətirmisən, bilirəm.
Çox özünü itirmişən, bilirəm,
Əvəz edib qış baharı, ay Xaliq!

Azad səni qardaş bilib özünə,
Qiymət qoyub hər dediyin sözünə.
Çəkdi mən tək yar intizar gözünə,
Erkən tapdıq xəzan xarı,.ay Xaliq!

## Qardaşım Adil

*(Adil İbrahimova)*

Allah var eləsin sizi əbədi,
Bu da bir əsərdir, növbəti, bədii.
İnsan bu dünyadan getməyə gəldi,
Yetişsə o zaman getməliyik, bil,
Nə həddim, getməyəm, qardaşım Adil?!

Dərd ilə yaşamaq yaşamaq deyil,
Belə yaşamağa kim salar meyil?
İtdən qorx, qurddan qorx, pişiyə əyil,
Belə həyacanla çəkmərəm bir il,
Nə həddim, getməyəm, qardaşım Adil?!

Sürmüşəm ömrümü mən ayıq-sayıq,
Çalışdım yaşayam millətə layiq.
Boynu yoğunların dünyasındayıq,
Nələr edə bilər mənim tək əlil,
Nə həddim, getməyəm, qardaşım Adil?!

Sözlərim mərmidir, silahdır qələm,
Kiminə xəncərəm, kiminə lələm.
Ötübdür zamanım, çətin dirçələm,
Bulağın suyuna qarışıbdır lil,
Nə həddim, getməyəm, qardaşım Adil?!

Dünyaya çox gəlib, hər türlü insan,
De, nəyim artıqdır yaranmışlardan?
İnsan taleyini həll edirsə an,
Bir gün lal olacaq dürr danışan dil,
Nə həddim, getməyəm, qardaşım Adil?!

Mollası iblisin səjdəgahında,
Ağa nahar edir məzlum ahında.
Hər kəs eyş-işrətdə, öz günahında,
Qanan yox örtəcək üstümüzü gil,
Nə həddim, getməyəm, qardaşım Adil?!

Xalqa, millətimə baxmamışam xor,
Yaşamaq olubdur bu dünyada zor.
Haqqı ağlayanlar gec-tez olur kor,
Mənim kor olmağım bir sübut, dəlil,
Nə həddim, getməyəm, qardaşım Adil?!

Adımı əzəldən qoydular belə,
Azad çağırdılar məhəbbət ilə.
Bildilər, olacam zillətə kölə,
Yaşaya bilmədim, azad, bir fəsil.
Nə həddim, getməyəm, qardaşım Adil?!

## Sənin

***(Musa Həşimov qardaşıma)***

Musa qardaşıma salam,
Sözləri dürr, şirin kəlam.
Sözlərindən əhli - halam,
Əməlin xeyirdi sənin.

Su deyilməz hər çeşməyə,
Ər deyilməz xandır deyə.
Zülmətdən nura getməyə,
Sözlərin"fənər"di sənin.

Kökləyirsən sarı simi,
Gələndə ilhamın dəmi
Var-sərvətin mənim kimi,
Əzəldən şeirdi sənin.

Qarşında baş əyirəm,
Səninlə mən fəxr edirəm.
Əməlisaleh deyirəm,
Əməllərin zərdi sənin.

Qardaşıma canım fəda,
Təki sizdən duyum səda.
Can verir kəlmən Azada,
Cümlələrin dürdü sənin.